**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XARİCİ İNVESTİSİYALARIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ – DÜNYA TƏCRÜBƏSİ VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

| | |
|---|---|
| İxtisas: | 5310.01 "Dünya iqtisadiyyatı" |
| Elm sahəsi: | İqtisad elmləri |
| İddiaçı: | **Uğur Azad oğlu İbrahimli** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

.

**BAKI – 2023**

Dissertasiya işi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Rövşən Rasim oğlu Quliyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Hacıağa Baxış oğlu Rüstəmbəyov**

iqtisad üzrə fəlsəfə doktoru
**Nihad Hafiz oğlu Muxtarlı**

iqtisad üzrə fəlsəfə doktoru
**Mirzai Cabir Cəbrayıl oğlu**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ________________ imza
Əməkdar elm xadimi
iqtisad elmləri doktoru, professor
**Yadulla Həmdulla oğlu Həsənli**

Dissertasiya şurasının elmi katibi: ________________ imza
iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

Elmi seminarın sədri: ________________ imza
iqtisad elmlər doktoru, dosent
**Müşfiq Yelmar oğlu Quliyev**

# İŞİN ÜMUMİ XÜLASƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müstəqilliyin elə ilk illərindən Azərbaycan böyük neft və qaz resurslarına malik olan bir ölkə kimi xarici investorların diqqətini cəlb etmiş və bunun məntiqi nəticəsi olaraq "Əsrin kontraktı" adlanan Azərbaycan hökuməti ilə dünyanın aparıcı enerji şirkətləri arasında Xəzər dənizinin Azərbaycana məxsus hissəsində karbohidrogen yataqlarının işlənməsinə dair müqavilə imzalanmış və bu müqavilənin nəticəsi olaraq ölkənin enerji sektoruna əhəmiyyətli həcmdə (2000-2021-ci illər ərzində 80 milyard ABŞ dollarından çox) birbaşa xarici investisiyalar (BXİ) cəlb etmişdir. Bu investisiyaların sayəsində Azərbaycan indiyənə qədər MDB ölkələri arasında həm ilbəil, həm də məcmu xarici investisiyaların adambaşına həcminə görə birinci yerdədir və ümumən dünya ölkələri arasında isə liderlər sırasındadır. Məhz bu investisiyaların nəticəsidir ki, Azərbaycan iqtisadiyyatı postsovet dövründə MDB-də ən yüksək iqtisadi artım nümayiş etdirir.

Eyni zamanda neft-qaz sektorunun həddən böyük sürətlə artması Azərbaycan iqtisadiyyatı üçün müəyyən təhdidlər yaratmışdır. Ölkənin ixracının böyük hissəsi bu sektorun payına düşür (neft-qaz məhsullarının ümumi ixracda payı 90%-dən çoxdur). Azərbaycan dövlət büdcəsinin gəlirinin əsas hissəsi  Dövlət Neft Fondundan maliyyələşir. Ən məyusedici hal isə budur ki, belə bir vəziyyətdə iqtisadiyyatın digər sahələrində artım tempi aşağı olmaqla bəzi illərdə azalma meyili göstərir.

Bütün bunların fonunda son illərdə bir tərəfdən mövcud layihələr çərçivəsində investisiyaların səngiməsi, digər tərəfdənsə dünyada enerji ehtiyatlarına tələbin azalması ölkə ÜDM-nin artım tempində güclü azalmaya səbəb olmuşdur. Ən başlıca neqativ hal isə budur ki, ölkənin karbohidrogen resurslarının tükənməsi ilə bu proses daha da sürətlənə bilər.

Bütün bunları nəzərə alaraq ölkə rəhbərliyi milli iqtisadiyyatın bir sektordan asılılığını azaltmaq istiqamətində tədbirlər həyata keçirməyə çalışır – hələ 2004-cü ildə "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya" haqqında fərman imzalanmış, bu sənəddə ölkənin daha tarazlı və davamlı iqtisadi inkişafının təmin

olunması üçün qeyri-neft sektorunun inkişafı əsas hədəf kimi Azərbaycan hökumətinin qarşısında qoyulmuşdur. Bu məqsədin həyata keçirilməsi ölkənin perspektivli sahələrinin yeniləşməsi və istehsal infrastrukturunun inkişafından keçir. Müasir dövrdə müəssisələrin yeniləşməsi xarici investisiyalar cəlb olunmadan qeyri-mümkündür. Eyni zamanda qeyd etmək lazımdır ki, Azərbaycanın mineral resurs sahələrinə böyük maraq göstərən xarici investorların kənd təsərrüfatı və emaledici sənayeyə sərmayə qoyuluşları çox məhduddur. Xarici investisiyanın iştirakı ilə ölkədə neft-qaz sektorundan kənarda yüksək texnologiyalı istehsalın qurulma halları isə, demək olar ki, yox səviyyəsindədir, halbuki əksər beynəlxalq araşdırmalarda Azərbaycan iqtisadiyyatının bir çox sahələrinin güclü potensiala malik olması, burada intellektual səviyyənin yüksək olması qeyd olunur.

Belə bir şəraitdə xarici kapitalın qeyri-neft sektoruna cəlb olunmasında dövlətin rolu əvəzsizdir. Əvvəla, ona görə ki, əksər hallarda, risk sevməyən özəl kapital xarici ölkəyə üz tutmazdan əvvəl bu ölkənin hökumətinin zəmanətini almağa çalışır. Bu, xüsusən yüksək texnologiyalara sahib olan inkişaf etmiş ölkələrin transmilli şirkətlərinə aiddir.

İkincisi, xarici kapitalın ölkəyə cəlb olunması üçün müəyyən investisiya mühiti yaradılmalıdır ki, burada da əsas rol dövlətə məxsusdur – məhz dövlət:

- uyğun qanunvericilik bazasını yaratmalı;
- xarici investorlara qeyri-diskriminativ, bəzi hallarda isə güzəştli şərtlər təklif etməli;
- xarici investorların ölkədə fəaliyyətini asanlaşdıran institutlar yaratmalı və onların fəaliyyətini tənzimləməli;
- xarici kapitalın ölkədən uzaqlaşdırılmasına səbəb ola bilən risk və qeyri-müəyyənlik hallarını minimallaşdırmalı – siyasi, iqtisadi, hərbi stabilliyi, ictimai asayişi təmin etməli;
- rüşvətxorluq, korrupsiya, süründürməçilik və məmur özbaşınalığının digər təzahürləri ilə mübarizə aparmalı;
- birgə müəssisələrinin yaradılması üçün yerli istehsalçıların xarici bizneslə əlaqələrini asanlaşdıran tədbirlər (sərgi, yarmarka,

konfrans və s.) keçirməli və/və ya onların keçirilməsində yardımçı olmalı;

- digər (həmçinin qeyri-iqtisadi) sferalarda ölkənin dünyada müsbət imicinin formalaşmasına və bunun artmasına nail olmalı;
- istehsal infrastrukturunun (yollar, kommunal təsərrüfat, ölkənin abadlaşdırılması, telekommunikasiya və s.) yenidən qurulması və ya təkmilləşdirilməsini həyata keçirməli;
- özəl biznesin imkanları xaricində olan və investisiya layihələrinin qiymətləndirilməsi üçün zəruri olan və ya bunu asanlaşdıran tədqiqatları təşkil etməlidir.

Beləliklə, ölkənin davamlı inkişafının zəruri şərti olan milli iqtisadiyyatın diversifikasiyasının və bunun üçün xarici investisiyaların ölkəyə cəlb olunmasının təmin olunmasında dövlətin investisiya mühitinin yaxşılaşdırılması üzrə tədbirlər həyata keçirməsinin alternativi yoxdur. Şərh olunan arqumentlər xarici investisiyaların dövlət tənzimlənməsi sahəsində dünya təcrübəsinin öyrənilməsini və bu təcrübənin pozitiv ünsürlərinin Azərbaycan gerçəkliyində tətbiqi imkanlarının araşdırılmasının aktuallığını şərtləndirir.

İnvestisiya mühitinin tədqiqinə çoxsaylı elmi araşdırılmalar həsr olunmuşdur. Burada ayrı-ayrı müəlliflərin tədqiqatları yanaşı Dünya Bankı, BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP), BMT İnkişaf Proqramı (UNDP), BMT-nin Ticarət və İnkişaf Konfransı (UNCTAD), Asiya İnkişaf Bankı, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı (İİƏT) kimi mötəbər beynəlxalq təşkilatların həm aparıcı yerli alimlərin, həm də beynəlxalq ekspertlərin iştirakı ilə apardığı tədqiqatları xüsusi qeyd etmək lazımdır.

Uzaq xarici ölkələrin bu sahədə tədqiqat aparan müəlliflərindən Magnus Blomström, Alfaro L., Ari Kokko, André Pascal, Kalemli-Ozcan S., Fung K.C., Iizaka H., Tong S., Shaukat A., Wei G., Edward M. Graham, Erika Wadanın işləri diqqəti cəlb edir.

MDB müəlliflərindən Иващенко И.С., Комаров В.В., Костюнина Г.М., Ливенцев Н. Н, Макеев К.С., Мельниченко О., Наливайский В.Ю. və Ульянов И.С. qeyd oluna bilər.

Azərbaycan müəlliflərindən xarici investisiyalar və onun dövlət tənzimlənməsi mövzusunu N. Məcidov, A.Mehtiyev, Q.Əliyev, F.Zeynalov, H.Allahverdiyev, C. Namazova, V. Zeynalov, İ. İbrahimov, K. Kərimov və s. şəxslər tədqiq etmişdir.

Təqdim olunan dissertasiya işində xarici investisiyanın nəzəri məsələlərinə, xarici ölkələrin xarici investisiyaların dövlət tənzimləməsi təcrübəsinin öyrənilməsinə və Azərbaycanda xarici investisiya mühitinin araşdırılmasına fərqli yanaşma tətbiq edilmiş və fərqli nəticələr alınmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycanda formalaşmış xarici investisiya mühitidir. Tədqiqatın predmetini xarici investisiyaların ölkəyə cəlb olunmasının dövlət mexanizmləri təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri**. Tədqiqatın məqsədi xarici investisiyaların ölkəyə cəlb olunması sahəsində dünya təcrübəsini öyrənmək əsasında Azərbaycanda xarici investisiya mühitinin yaxşılaşdırılması istiqamətində dövlət tədbirləri kompleksinin hazırlanması üzrə təkliflərin irəli sürülməsidir.

Bunun üçün tədqiqat çərçivəsində aşağıdakı vəzifələrin həyata keçirilməsi qarşıya qoyulmuşdur:

- İnvestisiyanın nəzəri-metodoloji əsaslarının kompleks tədqiqi;
- İnvestisiyanın səmərəliliyinin qiymətləndirilməsi üsullarının monitorinqi;
- Xarici investisiyalara təsir edən amillərin müəyyənləşdirilməsi;
- Xarici investisiyaların ölkəyə müsbət və mənfi təsirlərinin öyrənilməsi;
- Xarici investisiyaların tənzimlənməsinin dövlət mexanizmlərinin təhlili;
- Xarici investisiyaların ölkəyə cəlb olunmasında Çin təcrübəsinin ətraflı tədqiqi;
- Azərbaycanda xarici investisiyaların hüquqi bazası və dövlət institusional mexanizmlərinin təhlil olunması;
- Beynəlxalq təşkilatların tədqiqatları əsasında Azərbaycanın beynəlxalq nüfuzunun müəyyənləşdirilməsi;

- Azərbaycana birbaşa xarici investisiyaların müasir vəziyyətinin təhlili;
- Azərbaycanda xarici investisiya mühitinin çağdaş vəziyyətinin öyrənilməsi və onun təkmilləşdirilməsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri üzrə təkliflərin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqatın nəzəri və metodoloji əsaslarını iqtisadiyyat elminin klassiklərinin, həmçinin xarici investisiyalar üzrə çağdaş tədqiqatçıların əsərləri təşkil edir. Bu tədqiqatlar arasında keçid iqtisadiyyatlı ölkələrin, xüsusən də bu sahədə ən böyük uğur qazanmış Çin Xalq Respublikasının (ÇXR) təcrübəsinin ümumiləşdirən araşdırmalara üstünlük verilmişdir. Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının Statistika Komitəsinin və Azərbaycan Mərkəzi Bankının rəsmi məlumatları, həmçinin ÇXR-in rəsmi statistik göstəriciləri, beynəlxalq təşkilatların tədqiqatlarının nəticələri təşkil etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Tədqiqat işində müdafiəyə çıxarılan əsas müddəalar bunlardır:

- Ölkəyə xarici investisiyaların cəlb olunmasına təsir edən amillər və cəlb olunmuş investisiyaların ölkə iqtisadiyyatına verdiyi müsbət və mənfi tövhələr yeni aspektlərdən sistemli şəkildə araşdırılmışdır.
- Xarici investisiyaların ölkəyə cəlb olunmasında ən uğurlu nəticələr əldə etmiş Çinin təcrübəsi öyrənilmiş, Çinə xarici kapitalın cəlb olunmasının dövlət siyasəti, xarici investisiyaların cəlb olunmasında meydana çıxan problemlər və Çin hökumətinin xarici investisiya siyasətinin əsas elementləri müəyyənləşdirilmişdir.
- Xarici investisiyaların Azərbaycana cəlb olunmasını şərtləndirən amillər aşkarlanmış, əsaslandırılmış və sistemləşdirilmiş, eləcə də, xarici investisiyaların ölkəyə effektiv şəkildə cəlb olunması üçün həyata keçirilməsi məqsədəuyğun olan tədbirlər kompleksinin əsas istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi ondan ibarətdir ki, aparılan tədqiqatın nəticəsi olaraq Azərbaycanda xarici investisiya üçün şəraitin güclü və zəif tərəfləri araşdırılaraq, onun daha

da yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirləri kompleksi müəyyənləşdirilmişdir.

İşdə əldə edilən əsas yeniliklər aşağıdakılardır:

- birbaşa xarici investisiyalara (BXİ) təsir edən amillər sistemləşdirilərək, təhlil edilmiş, valyuta məzənnəsinin, dünyada və investisiyanı qəbul edən ölkədə faiz dərəcələrinin nisbətinin, ölkənin coğrafi mövqeyinin bu ölkəyə investisiya cəlb olunmasına təsirləri yeni aspektlərdən araşdırılmışdır. (2.1.)
- BXİ-lərin milli iqtisadiyyata müsbət və mənfi təsirləri sistemli şəkildə araşdırılmış və təhlili verilmişdir. (2.1.)
- Çin hökumətinin xarici investisiya siyasətinin xüsusiyyətləri ümumiləşdirilmişdir.
- BXİ-lərin qəbul edən ölkənin sosial və iqtisadi həyatında rolu müəyyənləşdirilmiş və sistemləşdirilmişdir. (II fəslin sonu)
- Müstəqilliyin ilk illərində BİX-lərin Azərbaycana cəlb olunmasını şərtləndirən amillər aşkarlanmış, əsaslandırılmış və təhlil olunmuşdur (3.1.).
- Ölkədə investisiya mühitinin qiymətləndirilməsi üçün yanaşma əsaslandırılmış və müasir Azərbaycan üçün tətbiq olunmuşdur (3.2.).
- Xarici investisiyaların ölkəyə effektiv şəkildə cəlb olunması sahəsində Azərbaycan hökumətinin gələcək fəaliyyətinin əsas istiqamətləri müəyyənləşdirilmişdir (3.5.).

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya çərçivəsindəki tədqiqat zamanı Azərbaycan hökumətinin investisiya mühitini yaxşılaşdırmaq üçün aşkarlanmış gələcək fəaliyyət tədbirlərinin reallaşdırılması taleyüklü məsələ kimi dövlət tərəfindən müəyyənləşdirilmiş milli iqtisadiyyatımızın diversifikasiyasında önəmli rol oynayacaqdır.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyada əldə edilmiş əsas müddəalar iki yerli və bir xarici elmi konfransda təqdim olunmuşdur. Tədqiqat işinin nəticələri müəllifin dərc etdirdiyi və AAK-n tanıdığı 4 yerli və bir xarici nəşrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar

Elmi Tədqiqat İnstitutunda (hazırda İqtisadi Elmi Tədqiqat İnstitutu) yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi və strukturu.** Dissertasiya işi giriş (12302 işarə), 3 fəsil (I fəsil – 74556 işarə, II fəsil – 83915 işarə, III fəsil – 89171 işarə), nəticə (13883 işarə), istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla ümumilikdə 164 səhifə (273827 işarə) həcmindədir. İşdə 1 şəkil və 19 cədvəldən istifadə edilmişdir.

## DİSSERTASİYANIN STRUKTURU

**Giriş**

**I Fəsil. İnvestisiyanın nəzəri-metodoloji bazası və investisiya layihələrinin qiymətləndirilməsi üsulları**

1.1. İnvestisiyanın iqtisadi mahiyyəti və təsnifatları

1.2. İctimai investisiyaların səmərəliliyinin qiymətləndirilməsi üsulları

1.3. İnvestisiyaların səmərəliliyinin qiymətləndirilməsinin kəmiyyət üsulları

**II Fəsil. Xarici investisiyaların dövlət tənzimlənməsi və onun dünya təcrübəsi**

2.1. Xarici investisiyanın determinantları və nəticələri

2.2. Xarici investisiyaların tənzimlənməsinin dövlət mexanizmləri

2.3. Xarici investisiyaların ölkəyə cəlb olunmasının Çin təcrübəsi

**III Fəsil. Azərbaycanda xarici investisiyaların dövlət tənzimlənməsinin xüsusiyyətləri və onun təkmilləşdirilməsi istiqamətləri**

3.1. Azərbaycanda xarici investisiyaların hüquqi bazası və dövlət institusional mexanizmləri

3.2. Azərbaycanın beynəlxalq nüfuzu

3.3. Azərbaycana birbaşa xarici investisiyaların çağdaş vəziyyəti

3.4. Azərbaycanda birbaşa xarici investisiyaların iqtisadi artıma təsirinin qiymətləndirilməsi

3.5. Azərbaycanda xarici investisiya mühitinin müasir vəziyyəti və onun təkmilləşdirilməsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri

**Nəticə**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## TƏDQİQATIN QISA MƏZMUNU

Tədqiqatın **Giriş** hissəsində dissertasiya işinin aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti göstərilir, həmçinin işin elmi yeniliyi, praktiki əhəmiyyəti və aprobasiyası şərh edilir.

**"İnvestisiyanın nəzəri-metodoloji bazası və investisiya layihələrinin qiymətləndirilməsi üsulları"** adlanan **I fəsildə** investisiyanın iqtisadi mahiyyəti araşdırılır, onların müxtəlif meyarlar əsasında təsnifatları verilir, dövlət investisiyalarının səmərəliliyinin qiymətləndirilməsi üsulları müzakirə olunur, investisiyaların səmərəliliyinin qiymətləndirilməsinin kəmiyyət üsulları araşdırılır.

**"Xarici investisiyaların dövlət tənzimlənməsi və onun dünya təcrübəsi"** adlanan **II fəsildə** xarici investisiyalara təsir edən amillər və BXİ-lərin sosial-iqtisadi nəticələri sistemli şəkildə araşdırılır, xarici investisiyaların tənzimlənməsinin dövlət mexanizmləri tədqiq olunur və BXİ-lərin cəlb olunmasında ən uğurlu keçid ölkəsi olan Çinin bu sahədə təcrübəsi öyrənilir.

**"Azərbaycanda xarici investisiyaların dövlət tənzimlənməsinin xüsusiyyətləri və onun təkmilləşdirilməsi istiqamətləri"** adlanan **III fəsil** tamamilə Azərbaycanın tədqiqinə həsr olunmuşdur. Burada aşağıdakı məsələlər araşdırılmışdır:

- Azərbaycanda xarici investisiyaların hüquqi bazası və dövlət institusional mexanizmləri.
- Azərbaycanın beynəlxalq nüfuzu.
- Azərbaycana birbaşa xarici investisiyaların çağdaş vəziyyəti.
- Azərbaycanda birbaşa xarici investisiyaların iqtisadi artıma təsirinin qiymətləndirilməsi.
- Azərbaycanda xarici investisiya mühitinin müasir vəziyyəti və onun təkmilləşdirilməsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri.

Dissertasiya işi çərçivəsində aşağıdakı əsas Nəticələr əldə edilmişdir:

**I. BXİ-lərə təsir edən amillər sistemləşdirilərək, təhlil edilmiş, valyuta məzənnəsinin, dünyada və investisiyanı qəbul**

**edən ölkədə faiz dərəcələrinin nisbətinin, ölkənin coğrafi mövqeyinin bu ölkəyə investisiya cəlb olunmasına təsirləri yeni aspektlərdən araşdırılmışdır.** Aşağıdakı amillər təhlil edilmişdir:

1. *Ölkədəki ictimai-siyasi stabillik səviyyəsi.*
2. *Ölkədə və ətraf regionda hərbi stabillik səviyyəsi.*
3. *Ölkədəki iqtisadi stabillik səviyyəsi.*
4. *Valyuta məzənnəsi.*
5. *Ölkədə biznes və xarici investisiya üçün əlverişlilik dərəcəsi.*
6. *Dünyada və ölkədə faiz dərəcələrinin nisbəti.*
7. *Ölkənin coğrafi mövqeyi, o cümlədən okeana çıxış imkanları.*
8. *Ölkə əhalisinin sayı.*
9. *Ölkə əhalisinin gəlir səviyyəsi.*
10. *Ölkə vətəndaşlarını təhsil və bilik səviyyəsi.*
11. *Qonşu ölkələrlə münasibət.*
12. *Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük.*
13. *İnvestisiya üzrə digər beynəlxalq konvensiyalara qoşulma.*

**II. BXİ-lərin milli iqtisadiyyata müsbət və mənfi təsirləri sistemli şəkildə araşdırılmış və təhlili verilmişdir.**

1. *Rəqabət.* Müsbət təsir BXİ vasitəsilə ölkəyə gətirilən texnologiyalar qabaqcıl olanda özünü daha qabarıq şəkildə büruzə verir. Bu, bir tərəfdən məhsulun qiymətini aşağı salmaqla yerli istehlakçılar üçün xeyirlidir, digər tərəfdənsə rəqabət nəticəsində daxili istehsalçıları öz istehsallarını təkmilləşdirməyə təhrik etməklə onların həm daxili, həm də regional bazarda rəqabət qabiliyyətini artırmağa xidmət edir.

Mənfi təsir potensial rəqabət üstünlüyünə malik olan daxili istehsal sahələrinin kifayət qədər inkişaf etmədiyi halda təzahür edir. Bu zaman hələ zəif olan daxili istehsalçılar bazara girmiş güclü xarici şirkətlə rəqabətə davam gətirməyib iflasa uğrayırlar və beləliklə, ölkə üçün mühüm olan bir sahənin tamamilə xarici investorun əlinə keçmə təhlükəsi meydana gəlir, halbuki belə rəqabət olmasaydı, yerli istehsalçıların müntəzəm olaraq kifayət rəqabət qabiliyyətinə nail olmaq imkanı ola bilərdi.

2. *Daxili iqtisadi siyasət.*

3. *Milli təhlükəsizlik.* a) TMK-lar öz bizneslərinin uğuru üçün stabilliyi qorumaq məqsədini güddüklərindən qəbul edən ölkənin

istənilən (həmçinin ədalətli) hərbi əməliyyatlarının qarşısını almağa çalışırlar; b) daxili siyasi proseslərə təsir, məsələn, öz biznes maraqlarını reallaşdırmaq məqsədilə daxili müxalif qüvvələrin dəstəklənməsi, hətta dövlət çevrilişinə yardım.

4. *İşsizlik.* BXİ real sektora yönəldiyindən məşğulluğun artması onun mühüm pozitiv sosial-iqtisadi təsirlərindən sayılır. Bəzi hallarda BXİ ölkədə işsizliyin artımına səbəb ola bilər. Bu, qəbul edən ölkədə yeni texnologiya üzrə peşəkar mütəxəssislərin olmadığı hallarda baş verir.

5. *İnflyasiya.* Müəyyən hallarda BXİ ölkənin bəzi bazarlarında qiymət artımını şərtləndirir. BXİ-lər xaricdən ölkəyə adam axını (işçilər, turistlər) da stimullaşdırır, ki bu da əlavə tələb yaradır.

6. *Müştərək müəssisələrə təsir.* Xarici şirkətlə müştərək müəssisə yaradan yerli şirkətin öz payını itirərək, müəssisənin tamamilə xarici tərəfdaşın əlinə keçməsi ehtimalı vardır. İlk vaxtlar yerli tərəfdaşa ehtiyacı olan xarici investor yerli şirkətlə müştərək müəssisə yaratsa da, ölkədə adaptasiya olandan sonra artıq bu tərəfdaşa ehtiyac olmadığından onun payını ələ keçirmək istəyə bilər.

**III. BXİ-lərin qəbul edən ölkənin sosial və iqtisadi həyatında rolu müəyyənləşdirilmiş və sistemləşdirilmişdir.**

BXİ-lərin istənilən ölkəyə şamil edilə bilən aşağıdakı universal töhfələri vardır.

1. Yaradılmış yeni istehsal sahələri ölkənin ixrac imkanlarını artırmaqla milli iqtisadiyyat üçün çox vacib olan ölkəyə xarici valyuta axınlarının yeni mənbələrini yaradır.

2. Yeni iş yerləri yaratmaqla ölkədə məşğulluğu artırır ki, bu da dövlətin çox mühüm sosial-iqtisadi vəzifəsinin həyata keçirilməsinə xidmət edir.

3. Məşğulluğun artması əhalinin gəlirlərini artırır ki, bu da öz növbəsində istehlakı artmasına səbəb olur. İstehlakın artması milli istehsalçıları gücləndirir və beləliklə, onların rəqabət qabiliyyətinin artırır.

4. İnkişaf etmiş yeni iqtisadi sahələrin ətrafında onlarla bağlı olan digər sahələr də inkişaf etməyə başlayır ki, bu da müasir dövrdə aktual, populyar və effektiv olan klasterial inkişafa şərait yaradır.

5. Həmçinin uyğun təhsil sahələri də inkişaf edir. Təhsilin müasir sosial-iqtisadi problemlərin həllində, o cümlədən yoxsulluğun aradan qaldırılmasında əvəzedilməz rolu isə müxtəlif ölkələrin təcrübəsi ilə sübut olunmuş danılmaz bir faktdır.

6. Əhalinin və yerli şirkətlərin gəlirlərinin artması, başqa sözlə milli gəlirin artması, dövlət büdcəsinin də gəlirlərini artırır. Bu ümumi artım ölkənin beynəlxalq aləmdə imicini artırmaqla onun digər sahələrinin əmtəə və xidmətlərinə olan tələbin artmasını şərtləndirir. Məsələn, başqa məhsulları ilə dünyada nüfuz qazanmış ölkəyə marağın artması bu ölkəyə xarici turistlərin axınını artırır.

7. Yuxarıdakı bəndləri nəzərdən keçirsək, görərik ki, onların hər biri digərini gücləndirən multiplikativ effektə malikdir. Bu isə o deməkdir ki, effektiv şəkildə ölkəyə cəlb olunmuş xarici investisiyalar iqtisadi inkişafın çox mühüm amillərindəndir.

**IV. Çin hökumətinin xarici investisiya siyasətinin xüsusiyyətləri ümumiləşdirilmişdir:**

1. Bu siyasət dövlətin milli iqtisadi inkişaf strategiyasına uyğunlaşdırılma kontekstində həyata keçirilir.

2. İstehsala investisiya sahəsində beynəlxalq əməkdaşlığın, demək olar ki, bütün mexanizmlərindən (mədən resurslarının birgə işlənilməsi, podrat tikinti, kompensasiya müqavilələri, işçi qüvvəsinin emiqrasiyası, xarici ölkələrdə investisiya qoyuluşu) istifadə olunur.

3. Xarici investisiyaların cəlb olunmasında seçimlilik. Bu, həm sahəvi, həm də ərazi kəsiminə şamil olunur.

4. Xarici kapitalın iştirakı ilə qurulan müəssisələrin məhsullarının ixraca hədəflənməsi.

5. İlk dövrlərdə xarici kapitalın cəlb olunmasında kəmiyyət amillərinə, sonrakı dövrlərdə isə keyfiyyət amillərinə üstünlük verilməsi.

6. Xarici kapital üçün əlverişli investisiya mühitinin yaradılması ilə yanaşı milli iqtisadi maraqların təmin olunması.

7. Sadə detal yığımı deyil, əməktututmlu, kapitaltutumlu və elmtutumlu istehsala üstünlük verilməsi.

8. Əməyin "şaquli" bölgüsündən çox "üfüqi" bölgüsünə üstünlük verilməsi.

9. Xırda və orta müəssisələrdən çox iri müəssisələrə və transmilli korporasiyalara üstünlük verilməsi.

**V. Müstəqilliyin ilk illərində BİX-lərin Azərbaycana cəlb olunmasını şərtləndirən amillər aşkarlanmış, əsaslandırılmış və təhlil olunmuşdur**.

1. *Daxili iqtisadi böhran*. İqtisadi problemlər müstəqillikdən qat-qat əvvəl hələ Azərbaycan SSRİ daxilində olarkən mövcud olmuşdur. Sosializm iqtisadi-siyasi sisteminin daxili mahiyyətindən irəli gələn və ilk növbədə xüsusi mülkiyyətin inkarı və istehsalın, həmçinin müəssisə səviyyəsində satınalmaların mərkəzləşdirilmiş planlaşdırma əsasında həyata keçirilməsi ilə izah olunan bu problemlər 1970-ci illərdən dərinləşməyə başlamışdı. 1980-cı illərin ortasında hakimiyyətə gəlmiş Qorbaçovun həyata keçirmək istədiyi "islahatlar" onun və onun komandasının bacarıqsızlığı və qərəzliliyi səbəbindən iflasa uğradı. Xüsusi mülkiyyət tətbiq edilsə də, dövlət idarəçiliyindəki səriştəsizlik və korrupsiya nəticəsində bu, tamamilə əks effektə gətirib çıxardı. Bu proseslərin məntiqi nəticəsi SSRİ-nin hər yerində, o cümlədən Azərbaycanda istehsalın tənəzzülü idi. Qarabağ konflikti səbəbi ilə Azərbaycanda Mərkəzi hökumətə protest olaraq permanent şəkildə davam edən tətillər tənəzzülü daha da dərinləşdiriridi.

2. *Xarici iqtisadi əlaqələrin tənəzzülü*. Sovet dövründə SSRİ-yə daxil olan respublikalar qeyri-rəsmi də olsa, müxtəlif statusa malik idilər. Əsas iqtisadi mərkəz Rusiya, Ukrayna və Belarus idi – ağır sənaye və qabaqcıl texnologiyalar bu respublikalarda inkişaf etdirilirdi. SSRİ tərkibinə yalnız ikinci dünya müharibəsindən sonra məcburi olaraq daxil etdirilmiş, buna görə və həm də Qərbə coğrafi olaraq daha yaxın olduğundan əhalisi Sovet rejimindən ən çox narazı olan Baltikyanı respublikalar slavyan respublikalarından aşağı da olsa, digərlərinə nisbətən yüksək statusa malik idilər. Uyğun olaraq SSRİ-dən ixracın səviyyəsi (məsələn, adambaşına, ÜDM-də pay və s.) də bu respublikalarda nisbətən yüksək idi. Qalan respublikalar, həmçinin Azərbaycan əsasən SSRİ-daxili satışlara köklənmişdi. Odur ki, bu ölkənin kollapsından sonra Azərbaycan postsovet bazarlarından asılı vəziyyətdə qalmışdı. Digər tərəfdənsə bu ölkələrdəki böhran onsuz da istehsalı azalmış Azərbaycan mallarına tələbi daha da azaldırdı.

3. *Rusiyadan valyuta asılılığı.* Hətta daxili investisiyaları əngəlləşdirən mühüm amillərdən biri o dövrdə Azərbaycanın xarici özünün valyuta ehtiyatlarının olmamasıdır: SSRİ-də mövcud olan qaydaya görə ölkənin ixracından əldə edilən bütün xarici valyuta Moskvada yerləşən Vneshekonombankda cəmlənirdi, respublikalarda xarici valyuta olmurdu. Digər tərəfdən müasir texnologiyaların xaricdən alınan texnikaya əsaslandığından müstəqillik əldə etmiş gənc dövlətlər faktiki olaraq bu imkandan məhrum olaraq, yalnız xarici investisiyalara ümid bəsləyə bilərdilər.

4. *İstehsal texnologiyalarının mənəvi köhnəliyi.*

5. *Xarici təcavüzdən qorunma.* Bu, xarici investisiyaların cəlb olunmasında daha bir qeyri-iqtisadi xarakterli praqmatik hədəf kimi dəyərləndirilə bilər. Məsələ burasındadır ki, o vaxtkı SSRİ, sonra isə Rusiya rəhbərliyi keçmiş respublikalara, xüsusən də böyük iqtisadi potensialı olan Azərbaycana qarışı imperialist siyasəti davam etdirirdi. Bu, 1990-cı ildə Sovet ordusunun Azərbaycandakı qanlı təcavüzündə və Azərbaycan torpaqlarının Ermənistan tərəfindən zəbt olunmasında Rusiya ordusunun iştirakında artıq öz əksini tapmışdı. Belə bir şəraitdə qüdrətli TMK-ların ölkəyə cəlb edilməsi Rusiya və İran kimi hərbi cəhətdən güclü ölkələrin daha genişmiqyaslı təcavüzkar siyasətinin və fəaliyyətinin qarşısının alınmasının effektiv üsulu idi.

6. *Daxili sosial-iqtisadi stabilliyin təminatı.* Müstəqilliyin ilk illərində bir tərəfdən daxili siyasi qüvvələrin hakimiyyət uğrunda mübarizəsi, digər tərəfdənsə yuxarıda qeyd olunan qonşu ölkələrin Azərbaycan daxilindəki müəyyən hallarda terror aktı həddinə çatan diversiya siyasəti də xarici investisiyaların cəlb olunmasının daha bir siyasi motivi idi. Daxili stabillikdə maraqlı olan TMK-lar Azərbaycan kimi kiçik ölkələrdə bu stabilliyin qarantı rolunu ifa edirlər.

Hadisələrin sonrakı axını TMK-ların Azərbaycana gəlməsi nəticəsində bu ümidlərin doğrulduğunu sübut etdi. Lakin qeyd etmək lazımdır ki, yuxarıda təsvir olunan motivlər eyni zamanda xarici investisiyaların Azərbaycana cəlb olunmasında maneə təşkil edirdilər. Daha bir maneə xarici investorların cəlb olunmasında regionda mövcud olan ölkələrarası rəqabətin kəskinliyi idi – bu məqsəd bütün postsovet məkanı dövlətləri üçün əsas hədəf idi və bunun ən parlaq təzahürləri a) indiyənədək bir çox beynəlxalq təşkilatların regional

nümayəndəliklərinin Cənubu Qafqazda hərbi cəhətdən ən stabil ölkə olan Gürcüstanda yerləşməsi və b) Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaların qat-qat zəif olmasıdır.

Digər tərəfdən nəzərə almaq lazımdır ki, xarici şirkətlərin hər hansı investisiya qoyduğu ölkədə əsas məqsədi bu ölkənin problemlərini həll etmək deyil, mənfəət əldə etməkdir. TMK-lara gəldikdə isə daha bir mühüm məqam nəzərə alınmalıdır ki, öz dövlətləri sıx əlaqədə fəaliyyət göstərən bu şirkətlər eyni zamanda həmin dövlətlərin maraqlarının realizatoru kimi çıxış edirlər.

**VI. Ölkədə investisiya mühitinin qiymətləndirilməsi üçün yanaşma əsaslandırılmış və müasir Azərbaycan üçün tətbiq olunmuşdur**.

Proseslərin bu cür axını ölkədə investisiya mühitinin tənqidi şəkildə qiymətləndirilməsini və bu sahədə mövcud olan problemlərin mənşəyinin dərk olunmasını tələb edir. Burada bu sahədə tədqiqatın iki istiqamətdə aparılması məqsədəuyğundur:

1. Müxtəlif qurumların tədqiqatlarının nəticəsi olaraq ölkənin uyğun reytinqlərinin araşdırılması.
2. Mötəbər təşkilatların Azərbaycanda xarici investisiya mühitinin qiymətləndirilməsi tədqiqatlarının araşdırılması.

Bu yanaşmanın məqsədəmüvafiqliyi aşağıdakı arqumentlərlə izah olunur:

- Bu reytinqlərin bir hissəsi bilavasitə ölkədə biznes mühitinin vəziyyətini əks etdirir (məsələn, “doing buziness”, “economic freeedom”), digər hissəsi isə dolayısı yolla da olsa, buna təsir edir.
- Hətta bu reytinq və hesabatlar reallığı tam və düzgün əks etdirməsələr belə, onların dünyada böyük nüfuzu ona gətirib çıxarır ki, onlar potensial investorların qərarlarına təsir edirlər.

• Qlobal rəqabətqabiliyyətlilik indeksi (The Global Competitiveness Index). Hər il keçirilən və bütün ölkələrin əsasən ilk şəxslərinin iştirak etdiyi Dünya İqtisadi Forumunun hər bir ölkə üzrə hazırladığı bu göstərici biznes mühiti və biznes potensialını əks etdirmək baxımından ən mötəbər göstəricidir. Bu indeks 2004-cü ildən hesablanır və ən geniş rəqabətqabiliyyətlilik göstəricilərini əhatə edir. İndeksin hesablanmasında istifadə olunan metodologiyaya əsasən

milli rəqabətqabiliyyətlilik dedikdə ölkənin və onun institutlarının ortamüddətli dövrdə iqtisadi artımının davamlı olaraq təmin olunması nəzərdə tutulur.

Burada qlobal rəqabətqabiliyyətlilik indeksi ilə yanaşı ikinci – biznesin rəqabətqabiliyyətlilik indeksi də hesablanır[1]. Aydındır ki, hər iki indeks xarici investorlar üçün vacibdir. Məsələn, əgər ölkədəki rəqabət qabiliyyətli biznes potensial investorun məhsulunu əvəzləyicisini istehsal edirsə, bu, onun üçün qaçırdıcı, əgər tamamlayıcı məhsul istehsal edirsə, bu, cəlbedici amil rolunu oynaya bilər. İndekslərin hesablanmasında istifadə olunan və üçdə ikisi şirkət rəhbərlərinin sorğusu əsasında formalaşan 113 göstərici 12 qrupa bölünür.

2019-cu il üçün aparılmış tədqiqatda Azərbaycan 141 ölkə arasında 58-ci yerdə qərarlaşmışdır. Həmçinin əlavə etmək lazımdır ki, 2020-ci ildən etibarən qlobal rəqabətqabiliyyətlilik indeksi öz fəaliyyətini dayandırmışdır.

- İqtisadi azadlıq indeksi (Economic Freedom Index). Bu indeks 1995-ci ildən hər il Wall Street Journal və Heritage Foundation tədqiqat mərkəzi tərəfindən əksər ölkələr üçün hesablanır. Heritage Foundation iqtisadi azadlıq "dedikdə vətəndaşların və ümumən azadlığın dəstəklənməsi halları istisna olmaqla dövlətin əmtəə və xidmətlərin istehsalı, bölgüsü və istehlakına müdaxilə və maneənin olmamasını" nəzərdə tutur. Hesabatda ölkələr 5 qrupa bölünür:

- İqtisadiyyatı azad olan ölkələr (indeks 80-100 arası).
- İqtisadiyyatı əsasən azad olan ölkələr (indeks 70-79,9 arası).
- İqtisadiyyatı sanki azad olan ölkələr (indeks 60-69,9 arası).
- İqtisadiyyatı əsasən azad olmayan ölkələr (indeks 50-59,9 arası).
- İqtisadiyyatı azad olmayan (despotik) ölkələr (indeks 0-49,9 arası).

2019-cu il üzrə İqtisadi azadlıq indeksi 180 ölkə üzrə hesablanmışdır və siyahıya Honkonq (indeks 90.2), Sinqapur (89.4) və Yeni Zellandiya (84.4) başçılıq edir. İqtisadi Azadlıq İndeksi baxımdan Azərbaycanın vəziyyətini və dinamikasını dərk etmək üçün onu digər postsovet ölkələri ilə müqayisədə təhlil etmək məqsədəuyğundur. Azərbaycan İqtisadi azadlıq indeksinə görə 2022-ci

---

[1] *Xarici ədəbiyyatlarda bu indekslər GCI (Global Competitiveness Index) və BCI (Business Competitiveness Index) kimi istifadə olunur*

ildə dünya üzrə 75-ci, postsovet ölkələri arasında isə 7-ci yeri tutur.

- Biznesin asanlığı indeksi (Doing Business index). Bu indeks Dünya Bankı tərəfindən hüquq və iqtisadiyyat sahəsində mütəxəssislər, həmçinin hökumət məmurları cəlb olunmaqla biznesə təsir edən qanun və hüquqi-normativ aktların araşdırılması əsasında hazırlanır və müəyyən amillər əsasında hesablanır.

2019-cu ilin hesabatına görə Azərbaycan postsovet ölkələri arasında 5-ci yerdədir. Son dövrlərdə aparılan islahatlar nəticəsində Azərbaycanın qlobal reytinqi 2019-cu ildə 57-ci mövqedən 25-ci yerə qalxmışdır ki, bunun da üç əsas səbəbi aşağıdakılardır:

- investisiyaların mühafizəsi (2-ci yer)
- biznesin açılması (9-cu yer)
- mülkiyyətin qeydiyyatı (17-ci yer)

2020-ci ildən etibarən Dünya Bankının qərarına əsasən “Doing Business” hesabatı öz fəaliyyətini dayandırmışdır.

- Korrupsiya səviyyəsi indeksi. (Corruption Perceptions Index, CPI). 1995-ci ildən başlayaraq Transparency International təşkilatı tərəfindən təqdim olunan bu indeks beynəlxalq, o cümlədən Asiya və Afrika inkişaf banklarının, Dünya bankının və ABŞ-ın Freedom House təşkilatının maliyyə və hüquq müdafiə ekspertlərinin iştirakı ilə hesablanır.

2021-ci ildə 180 ölkə üzrə aparılan bu tədqiqatın nəticələrinə görə bir çox postsovet dövlətlərində olduğu kimi Azərbaycanda da korrupsiyanın yüksək səviyyəsi əks olunur ki, bu da istənilən halda xarici investisiyaların cəlb olunması məsələsinə neqativ təsirini göstərir.

Bertelsmanın transformasiya indeksi (Bertelsmann transformation index, BTI). Bu indeks 1977-ci ildə Almaniyada əsası qoyulmuş beynəlxalq Bertelsman fondu tərəfindən hesablanır və avtoritar rejimdən azad bazar iqtisadiyyatına keçid ölkələrində siyasi və iqtisadi sahələrdə islahatların vəziyyətini əks etdirir.

Status indeksinə görə Azərbaycan 15 postsovet ölkəsi arasında 12-ci yerdədir. Müqayisələr Azərbaycanın xarici investisiyalar üçün cəlbediciliyində müəyyən problemlərin mövcudluğunu göstərir.

**VII. Xarici investisiyaların ölkəyə effektiv şəkildə cəlb olunması sahəsində Azərbaycan hökumətinin fəaliyyətinin əsas istiqamətləri müəyyənləşdirilmişdir:**

1. Dövlətin "İqtisadiyyatın inkişafının investisiya strategiyası" hazırlanmalıdır. Bu strategiya "Ölkənin iqtisadi inkişaf strategiyasına" uyğunlaşdırılmalıdır. Böyük vaxt, zəhmə tvə vəsait tələb edən bu konsepsiyanın vacib komponentlərindən biri kimi BXİ-lərin innovasiya və yüksək texnologiyalı məhsul istehsalı sahəsinə cəlb edilməsi strategiyası işlənib hazırlanmalıdır.

2. Normativ hüquqi baza daha da təkmilləşdirilməlidir (Məs: BXİ-lərin istehsalının müəyyən hissəsinin ixraca yönləndirilməsinin tələb olunması, investisiyaların uzunmüddətliliyinin tələb olunması, köhnəlmiş texnologiyalar üzrə BXİ-lərin qarsının alınmasının tələb olunması, Azərbaycan rezidentlərinin gerçəkləşdirə biləcəyi biznes fəaliyyətləri üzrə BXİ-lərin məhdudlaşdırılması, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasına uyğun olmayan BXİ-lərin ciddi ekspertizası tələbi).

3. Hüquqi baza ideal olduğu halda belə, bu, kafi deyil. Bu sahədə qanunun aliliyi təmin olunmalı, normativ aktların icra olunması təmin olunmalıdır.

4. Daxili stabilliyin davamlı olması üçün hakimiyyət strukturlarının müxtəlif qolları, müxtəlif sosial qruplar siyasi qüvvələr, partiyalar və ictimai təşkilatların dövlət quruculuğunda iştirakı və onlar arasında əminamanlıq təmin olunmalıdır. Bu, investisiyaların riskini azaltmaq və onların proqnozlaşdırılma dərəcəsini artırmaqla xarici investorların ölkəyə marağının artmasın üçün çox zəruridir.

5. Ölkədə qanun pozuntuları və iqtisadi cinayətkarlıq hallarının mütəmadi olaraq azaldılmasına nail olunmalıdır.

6. Dövlət idarəçiliyinin bütün səviyyələrində süründürməçilik, rüşvətxorluq və korrupsiya ilə effektiv mübarizə və bu sahədə şəffaflıq təmin olunmalıdır.

7. İndiyənədək uğurlu şəkildə həyata keçirilən makroiqtisadi stabillik siyasətinin davamlılığı təmin olunmalıdır.

8. Vergi sisteminin daha da sadələşdirilməsinə nail olunmalı, xarici kapitalın reinvestisiyası hallarında vergi güzəştlərinin təqdim olunmalıdır.

9. Müəssisələrin tam güc səviyyəsinə çataraq, müsbət miqyas effektindən bəhrələnməsi üçün yerli məhsulların regional bazarlara çıxışı istiqamətində fəal işlər həyata keçirilməlidir.

10. Əhali və şirkətlərin sərbəst maliyyə resurslarının investisiya ehtiyaclarına yönəldilməsi üçün və xarici investorların ölkə iqtisadiyyatına maraqlarının yüksəldilməsi üçün milli bank sistemi daha da təkmilləşdirilməli, kommersiya banklarının etibarlılıq səviyyəsinin yüksəldilməsinə nail olunmalıdır.

11. Xarici portfel investisiyalarının ölkəyə cəlb olunması üçün hələ də zəif olan və son maliyyə böhranından sonra daha da zəifləmiş daxili qiymətli kağızlar bazarını inkişaf etdirilməsinə nail olunmalıdır.

12. Çoxdandan bəri müzakirə olunan ölkədə xüsusi iqtisadi zonalar yaradılması ideyasının gerçəkləşdirilməsinə nail olunmalıdır.

13. Ölkədə investisiya və lizinqin sığortası bazarı inkişaf etdirilməlidir.

14. Ölkədə sivil bazar münasibətlərinin daha da inkişafına nail olunmalıdır.

15. İnvestisiyaların təşviqi və monitorinqinin institusional və maddi texniki bazası gücləndirilməlidir. Atıq uzun müddətdir ki, fəaliyyət göstərən AZPROMO və AİŞ-in funksiyaları dəqiqləşdirilməli, bir-birini tamamlamalıdır.

16. İnvestisiyaların, xüsusən, xarici investisiyaların layihə mərhələsində təftişi və seçimi həyata keçirilməlidir ki, yeni yaradılacaq istehsal ölkənin iqtisadi inkişaf strategiyası uzlaşsın.

17. Ölkədə potensial xarici investorlara kompleks xidmət göstərən şirkətlərin yaranması və fəaliyyəti təşviq olunmalıdır. Əslində, demək olar ki, AZPROMO və ya AİŞ-in timsalında belə şirkətlər artıq mövcuddur. Lakin tədricən onların özünümaliyyələşdirmə mexanizminə keçidə nail olunmalıdır.

18. Ev təsərrüfatlarında böyük maliyyə resurslarının cəmləndiyi Azərbaycan kimi ölkədə xarici kapitalın ölkəyə axınında seçim olmalı, müəyyən prinsiplərə riayət olunmalıdır. Xarici investisiyaların seçilməsinə məsul qurum seçmə zamanı müəyyən prinsiplərə əsaslanmalıdır. Belə prinsiplərdən bir neçəsi aşağıdakılardır:

- Layihə milli iqtisadi inkişaf strategiyasına və milli təhlükəsizlik prinsiplərinə uyğun olmalıdır.

- Potensial investorun təqdim etdiyi layihədə ölkəyə gətirilməsi nəzərdə tutulan texnologiya müasirlik baxımından dəyərləndirilməlidir. Təklif olunan texnologiyanın tətbiqi ilə istehsal olunan məhsullar perspektivli olmaları zəruridir. Bu mənada perspektivlilik dedikdə biz, azı, üç atributun varlığını nəzərdə tuturuq:

- bu məhsulun kifayət qədər geniş cari bazarı var;
- bu texnologiya ilə istehsal olunan məhsul kifayət qədər kifayət qədər geniş bazarlarda cari rəqabət qabiliyyətinə malikdir;
- kifayət qədər uzun dövr ərzində bu məhsul öz aktuallığını itirməyəcək, başqa sözlə ona tələb saxlanılacaq, yəni öz istehlak keyfiyyətlərinə görə bu məhsulu əvəz edə bilən yeni məhsul yaranana qədər bu investisiyalar özünü kifayət qədər doğruldacaq;
- kifayət qədər uzun dövr ərzində bu texnologiya köhnəlməyəcək, başqa sözlə bu məhsulu istehsal edən daha təkmil, yəni azməsrəfli texnologiya yaranana və diffuziya edənə qədər bu investisiyalar özünü kifayət qədər doğruldacaq;
- Texnologiya kifayət qədər çevik olmalıdır: əgər 3-cü və 4-cü bənddəki hadisələr baş verərsə, yəni yeni məhsul və ya texnologiya əmələ gələrsə, yaradılan müəssisə bu dəyişikliklərə kifayət qədər qısa dövr ərzində və nisbətən az məsrəflə uyğunlaşa bilər.

- Yüksək texnoloji prosesləri tələb etməyən istehsallarda daxili investorlara üstünlük verilməlidir.
- Reinvestment təklif edən layihə və investorlara üstünlük verilməlidir.
- Ekoloji və sosial layihələr təklif edən investorlara üstünlük verilməlidir.
- İnkişaf etmiş ölkələrin investorlarına üstünlük verilməlidir.
- Azərbaycana münasibətdə xoşməramlı investorlara üstünlük verilməlidir.
- Azərbaycan kapitalının da iştirak etdiyi birgə müəssisələr üstünlük verilməlidir, lakin bu zaman əmin olmaq lazımdır ki, xarici kapital güzəştlərdən istifadə etmək məqsədilə formal xarakter daşımır.

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:

1. Международный имидж Азербайджана как страны с транзитивной экономики / Журнал «Вектор науки» Тольяттинского Государственного Университета РФ. Серия: Экономика и управление, №3 (3), 2010, с.17-21

2. Kapital və investisiya: iqtisadi mahiyyət, tərif və təsnifatlar / "İpək yolu" jurnalı, № 2, 2010-cu il

3. Çinə xarici kapitalin cəlb olunmasının dövlət siyasəti / AMEA-nin "Xəbərlər" jurnalı, № 3, 2011-ci il

4. Xarici investisiyanin determinantlari və nəticələri / AMEA-nin Elmi əsərləri toplusu, №2, 2011-ci il

5. İnvestisiya sahəsində əsas beynəlxalq konvensiyalar / "Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri" mövzusunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə və müasir Azərbaycan dövlətçiliyinin 93 illiyinə həsr edilmiş beynəlxalq konfransın meterialları toplusu, 2011-ci il

6. İnvestisiya üçün siyasət çərçivəsinin əsas elementləri / İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun "Azərbaycanda iqtisadi-islahatların həyata keçirilməsinin xüsusiyyətləri və problemləri" Elmi Əsərlər Toplusu XVIII buraxılış, 2018-ci il

7. Çinə xarici investisiyalarin cəlb olunmasında meydana çıxan problemlər / "Azərbaycanın İnnovativ İnkişafında Mühəndisliyin Rolu: Hədəflər və Perspektivlər" adlı elmi-praktiki konfransın materiallar toplusu, 29-30 noyabr 2019

8. Problems of the foreign investment environment in Azerbaijan and the main directions of state policy on their resolution / 30th Eurasia Business and Economics Society (EBES) Conference Proceedings - Kuala Lumpur, Malaysia, 8-10 January 2020



Dissertasiyanın müdafiəsi “06” oktyabr 2023-cü il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunda fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “04” sentyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.06.2023. Kağızın formatı: 60x84 1/16.
Sifariş 03/09. Həcmi 1 ç.v. (33666 işarə)
Ofset kağızı №1.Tiraj 100.

"AA – Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
Əlaqə üçün: capevi@internet.ru – (055) 201-28-09